# Vardanyanın Puçdemondan nə fərqi var?

## Avropanın növbəti qərəzi, separatizmə dəstək nümayişi

Qərbin Azərbaycana qarşı ikili standartlar siyasəti özünü müxtəlif vaxtlarda, müəyyən situasiyalarda göstərib və göstərməkdə davam edir. Avropanın bəzi ölkələrinin qərəzli münasibəti xüsusən, 44 günlük Vətən müharibəsi və ondan sonrakı dövrdə daha aydın göründü.

Uzun illər ərzində Azərbaycan torpaqlarının ermənilərin işğalı altında olduğunu, ərazilərimizin dağıdıldığını, ekoloji terroru görüb susmaları, tədbir görməmələri, irad bildirməmələri, BMT-nin qəbul etdiyi 4 qətnaməyə kağız parçası kimi yanaşmaları bəzi Qərb siyasi dairələrinin riyakarlığının təsdiqi idi. Beynəlxalq hüquq normalarının üstündən xətt çəkənlər, bu gün Azərbaycanın beynəlxalq hüquqla tanınmış ərazi bütövlüyünü bərpa etməsi ilə barışa bilməyib, müxtəlif istiqamətlərdə bizə qarşı informasiya savaşı açıblar.

Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı dövrdə riyakar siyasət yürüdənlər ərazi bütövlüyümüzü bərpa etdiyimizi, münaqişəyə son qoyulduğunu görüb indi də Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasının qarşısını almaq üçün bütün vasitələrə və riyakarlığa əl atırlar. Onlar Ermənistanın yalanlarına, böhtanlarına, təxribatçı əməllərinə daim dəstək verərək bu ölkənin yanında olurlar. Maraqlısı odur ki, separatizmi dəstəkləyənlər, illərlə bu kimi hallara susanlar Avropanın müxtəlif ölkələrində və digər yerlərdə oxşar hadisələrə dərhal reaksiya verir, bu istiqamətdə əməli addımlar atırlar.

Müxtəlif illərdə Avropada separatçı hərəkatlar baş verib. Məsələn, Şimali İrlandiyada, Siciliya və Sardiniya adalarında, İtaliyanın şimal hissəsində yerləşən Padaniyada, Fransanın Korsika vilayətində və digər bir sıra Avropa ölkələrində separatizm meyilləri güclü olub. Yaxın tarixdə Kataloniyada baş verənlər də Qərbin separatizmlə bağlı fərqli standartlar siyasətini həyata keçirməsinin nəticəsidir. Separatizmdən əziyyət çəkən Avropa belə hərəkatların yatırılması üçün daim müxtəlif yollara əl atıb, hərbi gücdən də istifadə edib.

Amma mövzu Azərbaycan olduqda baxışlar, siyasət dəyişib. Sanki görən gözlər kor olur.

Bu, özünü ermənilər tərəfindən Azərbaycan xalqının başına gətirilən soyqırımı hadisələrinin beynəlxalq müstəvidə tanınmamasında, ermənilərin 30 il ərzində təbii sərvətlərimizi talamasına, ekoloji terrora göz yummalarında da göstərib. Bütün ədalətsizliklərə göz yuman Avropa bizə qarşı qərəzli qətnamələr qəbul edir, hətta ermənilərin istəyini nəzərə alaraq Azərbaycanla razılaşmadan sərhədə uzunmüddətli böyük heyətlə müşahidə missiyasını göndərmək qərarı qəbul edir.

Kataloniyada referendum keçirərək müstəqilliyə cəhd edən muxtar hökumətin sabiq başçısı Karles Puçdemonun həbs edilməsi üçün əlindən gələni edən Qərb, bəs hansı faktorlara əsasən Ruben Vardanyan kimilərini ondan ayırır və susur? Separatçının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasının qarşısını almaq məqsədilə Qarabağa göndərilməsi göz qabağındadır. Bəs Avropa separatçılara dəstək verərək, Azərbaycan ərazisində baş verənlərə susaraq bu siyasətin öz regionunda separatizm meyillərinin gücləndirdiyini, onun daha da alovlanacağını düşünmürmü?

### Qərbin çoxstandartlı siyasəti - separatizmə, terrorçulara yanaşmalar

Milli Məclisin deputatı Sahib Alıyev qeyd edib ki, Qərbdəkilərin hərəkətlərində çoxstandartlılığa tək separatizmə qarşı yanaşmada rast gəlinmir, onlar terrorçuları da yaxşı və pislərə bölürlər. Deputat bildirib ki, Avropa maraqlarına uyğun çıxış edən terrorçularla yaxşı olur, etməyənləri isə aradan götürürlər: "Hay terrorçularını məhkəmə salonundan açıb buraxmalarının, həbs olunduqları halda vaxtından əvvəl azad etmələrinin arxasında nə durursa, özlərindəki və özlərindən saydıqları ölkələrdəki separatçılıq ocaqlarıyla digərlərinə yanaşmada fərqli mövqe sərgiləmələrinin də arxasında o durur. Yaxud Avropada qanunsuz etiraz aksiyalarının necə amansızlıqla yatırıldığını azmı görmüşük? Amma o gördüklərimizin heç onda birinə Azərbaycanda rast gəlinmədiyi halda necə səs-küy saldıqlarını da bilirik. Ekofəalların Laçın yolundakı aksiyalarına yanaşmada da oxşar davranış nəzərə çarpmırmı?"

Sahib Alıyev bildirib ki, onlar bir sıra hallarda Azərbaycanın milli maraqlarına qarşı yönələn qanunsuz etiraz aksiyalarını dəstəkləyir, geniş şəkildə işıqlandırırlar.

"Bütün bunlar isə o deməkdir ki, qərbdəkilər bizim öz maraqlarını üstün tutan inkişaf etmiş dövlətə, yetkin cəmiyyətə çevrilməyimizi istəmirlər. Onlar bizim ölkəmizin özlərininkinə bənzəməsini yox, onlar istəyən hala düşməsini arzulayırlar ki, bunun da nə demək olduğunu rəngli inqilablar baş verənlərin təcrübəsindən bilirik", - deyə deputat əlavə edib.

### Separatizmdən əziyyət çəkən Avropa Azərbaycan ərazisində separatizmi dəstəkləyir

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qeyd edib ki, Qərb dövlətləri bu və ya digər məsələlərlə bağlı həmişə ikili standartlar tətbiq ediblər. Azərbaycan ərazisində ermənilər də kənardan dəstək almaqla separatizmlə məşğuldurlar. Nəzərə almaq lazımdır ki, bizim ərazilərimizdəki ermənilər artıq 30 ildən çoxdur Azərbaycan dövlətinə, xalqına qarşı cinayətlər törətməkdədirlər: "Təəssüflə qeyd etmək lazımdır ki, Qərb nəinki erməni separatizmi ilə bağlı hər hansı mövqe sərgiləyib, heç bunu pisləyəcək reaksiya nümayiş etdirməyib, əksinə, separatçı, cinayətkar rejimlə bu və ya digər vasitələrlə, müxtəlif səviyyələrdə əlaqələr qurmaqdan çəkinməyib. Məsələn, Fransa regionları, hətta rəsmi Bakının mövqeyini nəzərə almadan, heç bir müzakirələr aparmadan cinayətkar separatçılarla dostluq, qardaşlıq haqqında sənədlər imzalamışdılar. Bu, Qərbin Azərbaycan ərazisində separatizmi dəstəklədiyinin göstəricisidir. Fransa parlamentində qəbul olunan qərəzli sənəddə də Azərbaycan ərazisində erməni separatizmi aşkar şəkildə dəstəklənir".

Elşad Mirbəşiroğlu bildirib ki, bu, Qərb dövlətləri və strukturlarının səmimiyyətdən uzaq olduğunu, ikili standartlar siyasətini həyata keçirdiklərini göstərir. Bunun səbəbi hər şeydən öncə Cənubi Qafqaz kimi mühüm əhəmiyyət kəsb edən regionda ermənilərdən alət kimi istifadə edərək özlərinin təsir imkanlarını təmin etməkdir. Onsuz da həm Ermənistan, həm də Azərbaycan ərazisində yaşayan separatçı ermənilər kənar dairələrin maraqlarına xidmət edirlər, Qərb də onlar üzərindən hər hansı vəziyyəti manipulyasiya edərək Cənubi Qafqazda proseslərə təsir etmək, prosesləri yönləndirmək imkanı qazanmaq istəyir.

Deputat qeyd edib ki, bu yanaşma Avropa üçün də təhlükəlidir, çünki, demək olar ki, bütün Qərb ölkələrində separatizmə meyillilik var. Avropadakı separatçılar bütövlükdə Avropa dövlətlərinin təsisatlarının erməni separatizminə aşkar dəstək verdiyini müşahidə edərək ondan ruhlanıb bu istiqamətdə addımlar ata bilərlər. Zaman-zaman Avropanın bu və ya digər ölkələrində separatizmə meyillilik açıq şəkildə nümayiş etdirilir və ciddi qarşıdurmalara səbəb olur, yəni Avropa özü də bundan əziyyət çəkir. Ona görə də onların separatizmə münasibətdə sərt mövqe sərgiləmələri çox vacibdir.

E.Mirbəşiroğlu vurğulayıb ki, Azərbaycan kimi olduqca gərəkli tərəfdaşla münasibətlərdə, əməkdaşlıqda Qərb dövlətlərinin səmimi olmaları gözlənilir. Azərbaycan Avropanın enerji təhlükəsizliyində çox təsirli rol oynayan ölkədir. Bütün bunlarla yanaşı, Azərbaycan haqlı tərəfdir, ədalətli mövqedən çıxış edir. Öz əraziləri boyu tam suverenliyi təmin etmək, Cənubi Qafqazda əməkdaşlığın olmasını, sülhün, təhlükəsizliyin bərqərar olmasını istəyir və bunun üçün real addımlar atır: "Prezident İlham Əliyev bu gün regionda bütün müstəvilərdə əməkdaşlığın əsas təşviqatçısı və təşəbbüskarı rolunda çıxış edir. Məhz ölkə başçısının iradəsi, strateji yanaşmaları sayəsində Cənubi Qafqaz regionunda tarixdə ilk dəfə təhlükəsizlik sistemini qurmaq şansı yaranıb. Görünür ki, Avropa bu şanslardan yararlanmağa imkan vermək istəmir, çünki bu regionda etibarlı təhlükəsizlik sistemi yaranacaq. Əgər Cənubi Qafqaz münaqişə və gərginlikdən tam uzaq olarsa, onda Avropanın bu regiona təsir imkanları azalacaq".

Onun sözlərinə görə, Azərbaycan Cənubi Qafqazda konstruktiv əməkdaşlığın tərəfdarıdır. Qərb dövlətləri isə münaqişə, gərginlik, separatizm faktorları üzərindən regionda daha təsirli imkanlar əldə etmək düşüncəsindədir. Amma Azərbaycan istənilən qərəzli mövqeləri zamanında zərərsizləşdirmək imkanına sahibdır. Cənubi Qafqazda bundan sonrakı proseslər Azərbaycan kimi güclü, iradəli liderə malik olan, potensiallı bir dövlətin nəzarəti altında cərəyan edəcək, çünki bizim mövqeyimiz ədalətlidir, yolumuz haqq yoludur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 29 yanvar.- S.12.